# İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ *ALBIZIA JULIBRISSIN* DURAZZ. NÖVÜNÜN İNTRODUKSİYA PERSPEKTİVLİYİ

**Samirə Bağırova, Minarə Həsənova, Leyla Atayeva, Nigar Bədəl-zadə, Səadət Əliyeva**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Dendrologiya İnstitutu,*
*nigarbadalzade@mail.ru*

İşğaldan azad olunmuş ərazilərin bitki genefondunun bərpası, yeni növlərlə zənginləşdirilməsi dövlətin diqqət mərkəzindədir. Təbii bitki genefondu ilə yanaşı, mədəni dendrofloranın tətbiqi və torpaq-iqlim şəraitinə davamlı yeni növlərin introduksiyası çox vacibdir. Yaşıl zolaqların salınması və uzunömürlülüyü üçün daha çox qiymətli dekorativ xüsusiyyətlərə malik bitkilərin istifadəsi məqsədəuyğundur.

*Albizia julibrissin* Durazz. növünün Abşeron şəraitində bioekoloji xüsusiyyətləri, generativ çoxaldılması, fenologiyası, morfologiyası, perspektivliyi araşdırılmışdır. Bitki əsasən yabanı halda Talış ərazisində yayılmışdır. Azərbaycan Respublikasının "Qırmızı kitab"ına daxil edilmişdir. Abşeronda *ex situ* şəraitində yetişdirilmiş *Albizia julibrissin* Durazz. növü quraqlığa davamlılığı, torpağa az tələbkarlığı, gillicəli torpaqlarda daha yaxşı inkişaf edən, tez böyüyən növ olması ilə digər *Mimosadieae* DC. yarımfəsiləsi növlərindən fərqlənir. Növ dekorativ, ballı bitkidir və xoş ətirlidir. Çiçək və çiçək qrupunun həyatiliyinə görə uzunömürlü çiçək (17 gün) olduğu müşahidə edilmişdir. Ekoloji tələbatına görə işıqsevən, istiliyə tələbkar, bataqlıq mühitini sevməyən və 180$^{o}$C şaxtada bir-ikillik budaqları quruyan növdür. Aparılmış tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, toxum vasitəsilə çoxaldılmış bitki 4-5 yaşından sonra aprel-may aylarında çiçəkləyir. Toxumlar oktyabr-noyabr aylarında yetişir. Payızda (oktyabr) səpilən Lənkəran akasiyası (*Albizza julibrissin*) növünün toxumları yüksək cücərmə qabiliyyətinə malik olub, 43-85% cücərti vermiş, cücərtilər çox sürətlə inkişaf etmişdir. Təzə yığılan toxumlar yığılıb saxlanılan toxumlara nisbətən daha tez cücərti verir. Tumurcuğunun şişməsi aprel ayının 3-cü ongünlüyünə, yarpaqlama mayın əvvəllərinə təsadüf etmişdir.

İntroduksiya olunan bitkinin normal böyüyüb inkişaf etməsi üçün düşdüyü yeni iqlim şəraitinə uyğunlaşması böyük əhəmiyyət kəsb edir. Tədqiqat zamanı Lənkəran akasiyası (*Albizza julibrissin*) növünün ekoloji amillərə, o cümlədən temperatur rejiminə təsiri öyrənilmişdir. Məlum olmuşdur ki, temperaturun dəyişməsi bitkinin normal inkişafına təsir göstərir. Bitki birillik dövründə temperaturun +12$^{o}$C və -150$^{o}$C-yə qədər aşağı düşməsindən əziyyət çəkir. +11$^{o}$C və +100$^{o}$C temperaturda cavan budaqları kökə qədər donur. 2-3 illik bitkilərin bəzi budaqları quruyur. Belə ki, son illər Abşeronda iqlim dəyişkənliyi, şaxtalı hava şəraiti öyrəndiyimiz növə də öz mənfi təsirini göstərmişdir. Bitkinin Abşeronun iqlim şəraitinə davamlılığı, toxumlarının əkilməsi, onlardan alınan cücərtilərin morfologiyası, inkişafı müqayisəli öyrənilmişdir və Hirkan Milli Parkının ərazisindən tədarük edilmiş Lənkəran akasiyası (*Albizza julibrissin*) növünün toxumlarının cucərtiləri Abşeronun torpaq-iqlim şəraitinə tam davamlıdır. 1-3 illik bitkilər şaxtadan mühafizə olunmalıdır.

Bitki gövdəsinin çox hündür və çətirinin enli – çadırabənzər, yarpaqlarının gözəl, parlaq və tünd yaşıl olması, çiçəkləmə fazasında olduqca dekorativ görünüşə malik olması ilə fərqlənir. Dekorativ, mühafizə zolaqlarının salınmasında, yem kimi orta-yüksək protein dəyərinə görə maldarlıqda, balverən növ olaraq arıçılıq təsərrüfatında istifadəsi nəzərdə tutula bilər. Özünübərpa, tez məhsulvermə qabiliyyəti bu növün daha asan çoxaldılıb, canlı çəpərlərin salınmasında istifadəsinə imkan verir. Tək və qrup əkinlərində istifadəsi mümkündür. Ağac qabığı müəyyən miqdarda aşı maddələrini saxlayır. Qurudulmuş erkəkcik saplaqları xalq təbabətində müalicə məqsədilə öskürəyə qarşı tətbiq edilir.